## 10 il sonra—Əldə edilən nailiyyətlər Aİ 9.3
## Betti Bleyer Baş məqalə

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ, 9.3  (Payız 2001)
© 2003. Azerbaijan İnternational



Bu baş məqaləni yekunlaşdırmaq üzrə ikən Nyu-Yorkun Ticarət Mərkəzi və Pentaqona edilmiş terrorist hücumu haqda faciəvi xəbərlər bizim qaynar, lakin əvvəlcədən yazılmış taleyimizə daxil oldu. Dünyanın hər bir yerində olan yüz milyonlarla insan kimi biz də televizorlardan asılı qalaraq dünyanın ən hündür binalarından ikisinin xarabalığa və toza çevirən dəhşətli dağıntıya tamaşa etdik. Mən bunu yazarkən hələ minlərlə müəmmalı şəkildə qurban gedən və öldüyü güman edilənlər vardır. Daha naməlum qalanı isə ABŞ administrasiyasının bunun əvəzini ödəyəcəyini hədələdiyindən gələcəyin necə olacağı haqda verilən suallardır. Heç şübhəsiz, 2011-ci ilin 11 sentyabrı çatdıqda bu günün nsan həyatına edilən acınacaqlı hücumunun ildönümü olduğundan  mətbuatda "On il sonra" başlıqlı şərhlər gedəcəkdir.

Azərbaycan keçmiş 14 Sovet respublikalarının bəzilərinin etdiyi kimi 1991-ci ilin avqust ayında öz müstəqilliyini elan etdi. Lakin əslində bu yeni millətlər SSRİ 4 ay sonra, dekabr ayında rəsmi olaraq dağıldıqdan sonra əsl azadlıqlarını əldə etdilər. Dekabrın 7-si və 8-i 3 Sovet respublikasının liderləri—Rusiyadan Boris Yeltsin, Ukraynadan Leonid Kravçuk və Belorusiyadan Stanislav Şuşkeviç gizlicə Belorusiyada, Minsk şəhəri yaxınlığındakı Belovejski Meşələrindəki bağ evində görüşərək Sovet İttifaqının ləğv edilməsi və Müstəqil Dövlətlər Birliyi deyilən bir qurumun yaradılması haqda bir razılaşma sənədi imzaladılar. Dekabrın 17-ə kimi Yeltsin Qorbaçovu 1992-ci il, yanvarın 1-dən etibarən SSRİ-nin fəaliyyətinin dayanacağı barədə sənədi imzalamağa məcbur etdi. Əslində SSRİ-nin fəaliyyəti bundan daha tez sona çatdı. 1991-ci il, dekabrın 25-də üzərində oraq və çəkic şəkli olan Sovet bayrağı artıq Moskvada, Kremlin üzərində dalğalanmırdı. Onun əvəzində isə ağ, mavi və qırmızı rənglərdən ibarət üçrəngli Rusiya bayrağı yerləşdirilmişdi.

Tarixçilər Sovet İttifaqının parçalanmasını 20-ci əsrdə baş vermiş 3 ən monumental hadisələrdən biri kimi qiymətləndirirlər. Bu hadisələrdən digər ikisi bu əsrdə baş vermiş dünya müharibələridir (1914-1918 və 1939-1945). Heç nə ərazi sərhədlərini bu kataklizmik hadisələr kimi müəyyən etmədi. Sovet İttifaqının dağılması həm də tarixdə ən uzunömürlü imperiyalardan sayılan 500 illik Rusiya imperiyasının hökmranlığının

sonu demək idi. Əslində bu böyük gücə malik qurumun dağılmasına xarici amillər səbəb olmadı. SSRİ iqtisadiyyat və insan təbiəti sahəsində fəlsəfi anlamında daxili səhvləri özü özünün məhvinə səbəb oldu.

Keçmiş respublikaların mərkəzləşdirilmiş sistemdən bazar iqtisadiyyatına və totalitar sistemdən demokratiyaya gedən yolda heç bir yol göstərən olmamişdır. İxtiyarında milyardlarla dolları olan Amerikadan fərqli olaraq, keçmiş Sovet İttifaqı respublikaları bankrot vəziyyətində  qalmışdılar. Buna görə də həmin yol çətin və çox yavaş getdi. Onlara zamin ola biləcək və ya bunu necə etmək lazım olduğunu deyə biləcək heç bir "dayı"ları, böyük arxaları yox idi. Kimsəsiz uşaqlar kimi dünyaya atılmış bu respublikalar yeni dostluq münasibətləri, tamamilə öz təşəbbüsləri əsasında yeni siyasi, iqtisadi və hərbi əlaqələr yaratmalı oldular. Əlavə olaraq Azərbaycan kimi ölkələr müharibənin dağıntılı təsiri və bunun nəticəsində baş verən faciəvi insan təlafatları və el-obalarından köçməyə məcbur edilmiş yüz minlərlə qaçqın problemləri ilə üzləşməli oldu.

Yaranan yeni ümidlərə və imkanlara baxmayaraq, bu onillik uzun və çətin dövr olmuşdur. Sovet sisteminin dağılması hökumətin yenidən qurulması, yeni seçki proseslərinin yaradılması, yeni bank sistemlərinin, yeni təhsil və  hüquq təcrübələrinin təşkil edilməsi və şəxsi sahibkarlıq və mətbuatın rolu kimi yeni anlayışlara yeni səmtdən nəzər yetirmək demək idi.Yeni pul vahidi (artıq rubl deyil, manat), yeni şəxsiyyət vəsiqələri, yeni pasportlar, yeni poçt markaları, yeni lisenziyalar və buraxılış vərəqələri çap olundu.

Hələ bu azmış kimi Azərbaycan Stalin 1939-cu ildə kiril əlifbasını məcburi qəbul etdirənədək işlətdiyi latın əlifbasına keçməyi seçdi. Rus imperiyasının boyunduruğunu atmaq və Qərbə yaxınlaşmaq üçün edilən bu simvolik addımın nəticələri çox möhtəşəm və gözlənilməz olmuşdur.

Bu  nömrədə, biz bu keçid dövrünün bəzi şəxslərin gözündə bu keçid dövrü haqda məqalə vermişik. Azərbaycanın keçmiş Sovet rəhbərlərindən olan, yeni Azərbaycan üçün çoxlu sayda fundamental dəyişikliklər işində pionerlik etmiş ən təcrübəli rəhbəri olan prezident Heydər Əliyevlə müsahibə olmasaydı, xülasəmizi tam hesab etmək olmazdı. Prezidentin dediyinə görə, Qərbin bu keçid dövrü barədə ən böyük yanlış təsəvvürü bu keçid üçün tələb olunan zaman müddətidir. Onun fikrincə, əqli və psixoloji dəyişikliklər fiziki dəyişiklərdən qabaq gəlməlidir. "Demokratiyanı nə güclə, nə də ki, inqilabi yolla qəbul etdirmək olmaz. Demokratiya inqilabi deyil, bir təkamül prosesidir. Bunun üçün, müxtəlif dövlətlər üçün müxtəlif vaxt çərçivəsi tələb olunur."

1992-ci ilin ortalarında Bakıya ayaq basmış ilk xarici vətəndaşlardan biri olan italiyalı Paolo Lembo (səh. 20-30) Birləşmiş Millətlər Təşkilatının (BMT) bayrağını çantasında gətirərək ölkədə ilk BMT missiyasının əsasını qoymuşdur. Onun Azərbaycanın təcrid olunmadan çıxmağa başladığı o ilkin illər haqda xatirələri Azərbaycan haqda acı, çox hallarda isə məzəli bir təəssürat yaradır. Paolonun Parisdə başı fransız dili imtahanları ilə

bərk qarışıq olan zaman və Əlcəzairə təyin olunduğu yeni işinə (1997-ci ildə Azərbaycanı tərk etdikdən sonra üçüncü işi) yola düşməyə hazırlaşarkən İnternet Kafedən yazdığı xatirələri rəsmi bir diplomatik xülasədən daha çox bir yazıçı gündəliyi təsiri bağışlayır.

Tarixçilər də həmçinin keçmişi analiz etmə mövqelərinə yeni səmtdən nəzər yetirməli olmuşdur. Fərid Ələkbərovun "Azərbaycanın tarixini yazarkən—həqiqəti arayarkən" (səh. 40-49) hər bir "tarixi fakt"ın üzərində Sovet damğasının olduğunu göstərilir. İndi tarixçilər Azərbaycanın keçmişinin aktual reallığını müəyyən etmək üçün ideologiya qatını qoparıb atmağa çalışır.

Hazırda 18 yaşı olan Gülnar Aydəmirova keçmişi tədqiq edərək ulu babalarının 1920-ci ildə Bolşevik İşğalına qarşı çıxdıqlarına görə "xalq düşməni" damğası vurduqlarını öyrənməyin nə demək olduğunu təsvir edir. Onlar dünyalarını dəyişdiklərindən başlarına gələnləri danışmağa müvəffəq ola bilməmişlər. İndi bunu o danışır (Səh. 64-67). Onun danışdıqları yalnız Azərbaycana aid deyil. Keçmiş Sovet İttifaqında yaşayan on minlərlə insan buna bənzər əhvalatlar danışa bilər.

Sovet sistemin dağılmasının ən xoş nəticələrindən biri də odur ki, beynəlxalq ictimaiyyət onların bir sıra istedadlı incəsənət xadimləri ilə tanış olmağa başlayır. Azerbaijan İnternational jurnalı Statoil şirkəti ilə birlikdə Azərbaycan bəstəkarı Üzeyir Hajıbəyovun ən yaxşı əsərlərindən ibarət 7 CD-dən ibarət toplunu istehsal etdiyinə görə çox qürur duyur. Heç bir bəstəkar siyasi, dini, ictimai və cender təzyiqinin aradan qaldırılmasında ondan daha çox cəhd göstərməmişdir. Buna görə biz ona Çox Sağ Ol və Ad günün mübarək olsun deyirik. Onun bu il sentyabr ayında 116 yaşı olacaqdı. Musiqi nümunələrini əldə etmək və dinləmək istəyirsinizsə, Azer.com saytına nəzər salın və Aİ Store-a daxil olun.

———

Veb direktor: Betti Bleyer
Tərcümə etdi: Ülviyyə Məmmədova
Yoxladı: Gülnar Aydəmirova
Veb üçün hazırladı: Aydan Nəcəfova
AZERİ.org-a qoyuldu: Dekabr 2004